

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 4 (23.646)

8 yanvar 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




## Muxtar respublikamız ötən ili də uğurla başa vuraraq yeni inkişaf mərhələsinə qədəm qoyub

*Məqaləyə ölkəmizdə 2003-cü ilin prezident seçkiləri ərəfəsində ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqına tarixi müraciətində cənab İlham Əliyevi xarakterizə etdiyi bu fikirlərlə başlamaq istəyirəm:* ***“O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

Ötən bu müddət ərzində həm tarix, həm də cənab İlham Əliyev sübut etdi ki, ulu öndərin sözlərində nə qədər böyük həqiqət var.

Görkəmli dövlət xadimi Heydər Əliyevin dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənən siyasi kursunu uğurla davam etdirən, hər bir Azərbaycan vətəndaşının Prezidenti olan cənab İlham Əliyev özünün idarəetmə siyasətində, bütövlükdə, ölkənin maraqlarını əsas götürür. Yəni ucqar regionlarımız, ən kiçik yaşayış məntəqələrimiz dövlət başçısının eyni səviyyədə diqqət mərkəzindədir. Prezidentin fəaliyyəti dövründə ölkənin müxtəlif regionlarına səfərləri, bölgələrdə ayrı-ayrı sahələrin inkişafı ilə bağlı imzaladığı sərəncamlar, verilən tapşırıqların icrasının şəxsən dövlət başçısının nəzarətində olması da bunu təsdiq edir.

Strateji ərazidə yerləşən, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayan Naxçıvan Muxtar Respublikası, burada yaşayan hər bir Azərbaycan vətəndaşı dövlət başçımızın bu qədim yurd yerinə də qayğısını hər addımda görür. 18 il ərzində 14 dəfə Naxçıvana səfərə gələn, 135-dən çox müxtəliftəyinatlı obyektin açılışında iştirak edən ölkə başçısının görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirməsi tarix üçün qısa zaman kəsiyində Naxçıvanda da böyük uğurlara yol açıb. Bunun ifadəsidir ki, Naxçıvan bu gün böyük quruculuq layihələrinin əzmlə həyata keçirildiyi diyara çevrilib. Bu isə müstəqil Azərbaycan dövlətinin tarixi nailiyyətlərindən biri, müasir inkişaf modelinin real təzahürüdür. Prezident cənab İlham Əliyev 2019-cu il noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən bir daha muxtar respublikanın belə inkişafını yüksək qiymətləndirərək deyib: ***“Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir”.***

Bunu 2020-ci ilin qısa statistikasında da görmək olar. Ötən il pandemiyanın yaratdığı mənfi təsirlərə baxmayaraq, muxtar respublikada əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olub. Onun bir nəfərə düşən həcmi 6 min 310 manat təşkil edib. Bu, 2019-cu ildəki göstəricidən 1,8 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşüb. Qeyd olunmalıdır ki, bu rəqəmlər kiçik rəqəmlər deyil. Buna nail olmaq da asan başa gəlməyib, yollar axtarılıb, mövcud potensialdan səmərəli istifadə olunması diqqətdə saxlanılıb, elmi əsaslara söykənilib. Əldə olunan nailiyyətlər blokada şəraitində yaşayan diyarımızda insanların maddi-rifah halının xeyli yüksəlməsini təmin edib.

Sosial-iqtisadi inkişafda mühüm rola malik olan sahibkarlıq subyektlərinin, daha dəqiq desək, müxtəlif istehsal müəssisələrinin ilbəil artması muxtar respublikada bu sahəyə göstərilən qayğının ifadəsidir. 2020-ci ildə sahibkarlara 30 milyon 909 min manat kredit verilib, 119 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, 34 hüquqi və 2 min 220 fiziki şəxs dövlət qeydiyyatına alınıb. Sahibkarlığın hazırkı inkişaf səviyyəsinin nəticəsidir ki, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Hər bir ölkənin inkişafında sənaye sahəsi üstün rola malikdir. Ona görə də muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin həcmi və coğrafiyası ildən-ilə genişlənir, yeni istehsal sahələri yaradılır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2020-ci ildə muxtar respublikada istehsal edilən sənaye məhsulunun həcmi artaraq 1 milyard 40 milyon 475 min manat olub. Sənayenin dövlət sektorunda 68 milyon 245 min manatlıq, qeyri-dövlət sektorunda 972 milyon 230 min manatlıq məhsul istehsal edilib.

Tarixən aqrar region kimi tanınan diyarımızda bu sahənin inkişafına bu gün də ciddi önəm verilir. Bu da onunla bağlıdır ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Odur ki, insanların məşğulluğunun təmin edilməsində, sənayenin xammal bazasının gücləndirilməsində aqrar sahə mühüm rola malikdir. Həyata keçirilən tədbirlər sırasında meliorasiya-irriqasiya işlərinin davam etdirilməsi, muxtar respublikaya yeni kənd təsərrüfatı texnikalarının gətirilməsi, torpaq mülkiyyətçilərinə kreditlərin verilməsi, soyuducu anbarların fəaliyyətinin genişləndirilməsi xüsusi qeyd olunmalıdır. Təbii ki, bu istiqamətdə görülən işlər bəhrəsiz qalmayıb. Belə ki, muxtar respublikada keçən illə müqayisədə 4,6 faiz çox olmaqla, 537 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal edilib.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, qarşılıqlı iqtisadi əlaqələr saxlayan dövlətlər bu vasitə ilə öz iqtisadiyyatlarını gücləndirə, əhalisinin yaşayış səviyyəsini yüksəldə, iqtisadi asılılıqdan azad ola bilər. Bunun üçün istehsal edilən məhsulların keyfiyyəti rəqabətədavamlı və ixracyönümlü olmalıdır. Son illərdə muxtar respublikada bu amil üstün istiqamət təşkil edib. Xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının gücləndirilməsi, qarşıya çıxan problemlərin həll edilməsi bu istiqamətdə qazanılan uğurlara stimul olub. 2020-ci ilin muxtar respublikada “İxrac ili” elan edilməsi və “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın təsdiq olunması istehsal edilən məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaradıb. Həmçinin sistemli tədbirlərin həyata keçirilməsi sahibkarlıq subyektlərinin ixracyönümlü məhsul istehsalını da stimullaşdırıb. 2020-ci ilin ötən dövründə muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min Amerika Birləşmiş Ştatları dolları təşkil edib. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min Amerika Birləşmiş Ştatları dolları ixracın payına düşüb, müsbət saldo yaranıb.

Yuxarıda sadaladıqlarımız ölkə başçısının dediklərini bir daha təsdiq edir: ***“...Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır”.*** Və belə də oldu. Bu qədim yurd yerinə gələn siyasət xadimləri, turistlər də bunu gördülər. Naxçıvanlılar isə bu sürətli inkişafı öz həyatlarında yaşayırlar.

Bu gün ölkəmiz Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir. Artıq Azərbaycan dünyada söz sahibi olan, güclü iqtisadiyyata və qüdrətli orduya malik bir dövlətdir. Bu qüdrətli dövlətin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da ulu öndərimizin və onun layiqli davamçısının ideyalarının dönmədən həyata keçirilməsi nəticəsində əsl inkişafa qovuşub. Dünya tarixinə yazılan müxtəlif hadisələrin mənfi təsirlərinin qarşısı qabaqlayıcı tədbirlərlə alınıb. Neçə illərdir ki, təmin olunmuş ictimai-siyasi sabitlik qorunub saxlanılıb. İctimai-siyasi sabitlik isə qaynar həyat ritminin davam etdirilməsində başlıca rol oynayıb.

Ötən il noyabr ayının 10-da Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması nəticəsində imzalanan üçtərəfli Bəyanatda Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yolları vasitəsilə birləşdirmək haqqında da ayrıca müddəa öz əksini tapmışdır. Bu, Naxçıvanın gələcək inkişafı və təhlükəsizliyi baxımından böyük tarixi əhəmiyyət kəsb edir. Prezident cənab İlham Əliyev yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə bu məsələyə yenidən münasibət bildirərək deyib: ***“Hazırda Naxçıvan dəhlizinin açılması üçün konkret işlər gedir. Mən hadisələri qabaqlamaq istəmirəm, amma bu dəhlizin açılması noyabrın 10-da imzalanmış Bəyanatda öz əksini tapıb. Ona görə bu, mütləq açılacaq və bölgəyə yeni imkanlar gətirəcək”.***

Dövlət başçısı çıxışında bu yoldan həm Azərbaycan, həm Türkiyə, həm Rusiya, həm Ermənistan, həm də İranın istifadə edəcəyini bildirərək bunun əhəmiyyətini belə vurğulamışdır: ***“Bu yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyətə malikdir. Biz öz ərazimizdə Horadiz-Ağbənd dəmir yolunun tikintisinə başlayacağıq. Bununla paralel olaraq, Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpası və müasirləşdirilməsi istiqamətində də işlər aparılacaq. Nəzərə alsaq ki, Ermənistan dəmir yolları Rusiya dəmir yollarının mülkiyyətindədir, bizim tərəf-müqabilimiz, əlbəttə, Rusiyadır. Çünki Ermənistan dövlətinin Mehri dəmir yolu layihəsinə heç bir aidiyyəti yoxdur. Biz bu məsələni Rusiya ilə müzakirə edirik. Çünki Rusiya dəmir yolları Ermənistan dəmir yollarının sahibidir. İlkin müzakirələr müsbətdir”.***

Bütün bunlar bir daha təsdiq edir ki, 2021-ci ildə muxtar respublikada inkişafın yeni mərhələsinin təməli qoyulub. Ölkə başçısının dediyi kimi: ***“...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır”.***

*O da xüsusi qeyd olunmalıdır ki, 30 illik blokadanın hökm sürdüyü bir vaxtda bu şəkildə tərəqqiyə nail olmaq təcrübəsinə indiyədək dünyanın heç bir yerində rast gəlinməyib. Belə tərəqqiyyə, inkişafa nail olmaq üçün gərək insanlarda yüksək vətənpərvərlik ruhu, Vətən sevgisi, yurda bağlılıq, xalqa məhəbbət, dövlətə, dövlətçiliyə sədaqət hissləri olsun. Naxçıvanda bütün bunlar var.*

✍ **Muxtar MƏMMƏDOV**

## Daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadə diqqətdə saxlanılır

*Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə nəzarət dekabr ayında da diqqətdə saxlanılmış, bir sıra tədbirlər həyata keçirilmişdir.*

Torpaqların elektron kadastr uçotunun aparılması üçün Culfa bələdiyyəsi üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, torpaq reyestrində saxlanılan məlumatlarla uyğunluğu yoxlanılmışdır. Sədərək rayonu üzrə həyətyanı və pay torpaq sahələrinə dair məlumatların miqrasiyası başa çatdırılmış, elektron kadastr xəritəsi tərtib edilmişdir.

Əkin atlaslarına uyğun əkinlərin aparılmasına nail olunması, bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin icarəyə verilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməsi məqsədilə Culfa, Şahbuz və Kəngərli rayonlarında maarifləndirici tədbirlər keçirilmişdir. Şahbuz rayonunun Şahbuz, Nursu, Türkeş, Keçili və Mahmudoba bələdiyyələri üzrə yenilənmiş torpaqların qida maddələri ilə təminolunma kartoqramları müvafiq bələdiyyələrə təqdim olunmuş, onlara kartoqramlardan istifadə qaydaları izah edilmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə ay ərzində Şərur rayonunun Yengicə və Xələc, Kəngərli rayonunun Qarabağlar kəndlərində monitorinqlər başa çatdırılmışdır. Şərur rayonunun Maxta, Axaməd, Kərimbəyli və Kürçülü kəndlərində aşkar olunmuş torpaqdan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində iş aparılmışdır.

Ötən ay 509 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 434 texniki sənəd hazırlanmış, yeni yaradılmış 31 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 121 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. 15 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

“Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin müzakirəsi keçirilmiş, icrası ilə bağlı iş planı təsdiq edilmişdir.

Naxçıvan Dövlət Universitetinin xidmətin hamiliyinə verilmiş Torpaqşünaslıq və aqrokimya ixtisasında təhsil alan tələbələri ilə görüş keçirilmiş, Memarlıq, Geodeziya və xəritəçəkmə mühəndisliyi ixtisasları tələbələrinin xidmətin bazasında istehsalat təcrübəsi keçmələri təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Cümə günü sübh çağıdır. Yolum ucqar dağ kəndinədir. Paytaxt Naxçıvan şəhərindən gedəcəyim ünvanı 30 kilometrə yaxın məsafə ayırır. Elə bunun üçün də səhərin erkən saatlarından yola çıxıram. Yolboyu gözlərim qarşısında şaxtalı, sazaqlı qışın bir-birini tamamlayan bənzərsiz mənzərələri fonunda füsunkar görünüşlü, abad, büsatlı günlərini yaşayan Hacıvar, Badaşqan, Yarımca kəndləri canlanır. Artıq bir neçə gündür ki, yerin göyə olan sevdasından ağ örpəyə bürünən ağaclar, nizamlı əsgər kimi sıra ilə düzülən, bu gözəl yurdumuzu bədnəzərlərdən "qorumağa çalışan" başıqarlı dağlar mahir rəssamın incə zövqlə işlədiyi gözəl bir qış tablosunu xatırladır, mənə. Çox keçmir ki, dağların sinəsinə çökən sis, duman yamaclara, həyətlərə də yayılır, çöllük ərazilərdə səssizlik hökm sürür.*



Yeniləşən kəndlərimiz

# Ağ örpəkli qədim yurd yeri...

Kiminə hüzur bəxş edən, ruhuna həzin musiqi kimi sığal çəkən, kiminin də qəlbində yeni ümid qığılcımları oyadan nostalji duyğularla dolu bu qış nəğməsinin sözləri elə bil ömrünün ahıl çağlarını yaşayan bir insanın könlündən şirin xatirə tək süzülüb gəlir:

*Bahar həsrətiylə çağlayır külək,*
*Pərişan ağaclar sazaqdan əsir,*
*Durna qatarının sonuncusutək,*
*Ömür son mənzilə yaman tələsir.*

Munis duyğularla mürgüləyən təbiətin səsini dinləmək üçün avtomobilin istidən tutqunlaşmış şüşəsini azacıq endirəndə bir andaca içəri tələsən qışın ayazlı yeli üzümə çırpılır. Yanımda əyləşib mənimlə birgə ətraf aləmi seyr edən, bu yerlərə yaxşı bələd olan yolyoldaşım yalçın qayalardan üzübəri uzanan quru sahələri göstərərək deyir ki, yaz-yay aylarında yolun bu tərəflərə düşsə, bax o gördüyün qırovlu, şehli yerlərdə boy göstərən taxıl zəmilərinin, yamyaşıl otların, güllü-çiçəkli ağacların fonunda özünü əsl cənnətməkanda hiss edərsən. Söhbətin şirin yerində yolun sol hissəsində qış yuxusuna gedən qupquru dərələrin arası ilə üzüaşağı axan su diqqətimi çəkir və mənbəyini axtararkən bir mənzərə qarşısında qeyri-iradi lal sükuta qərq oluram. Çöllük ərazidə suyun fontan verərək 3-4 metr şahə qalxmasını düzü ilk dəfədir, görürəm və yolyoldaşımın "Bu da səsi-sorağı dillərdə gəzən Nəhəcir suyu" sözlərindən sonra fəvvarənin ətrafında dayanan insanların yanına tələsirəm. Bu barədə maraqlı məlumatlar öyrənirəm. Kənd sakinlərinin sözlərinə görə Nəhəcir dağının ətəyindən çıxan bu mineral sudan mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlər, həmçinin qanazlığı olanlar geniş istifadə edir və indiyədək çox sayda insanın faydasını gördüyü məlumdur. Deyilənə əsasən yaz-yay aylarında bu bulağın ətrafı qonaqlı-qaralı olur, ərazidə qoyulan oturacaqlar da istirahətə gələnlərin rahatlığı üçündür. Su hər 40-50 dəqiqədən bir qaynayıb üzə çıxır, təxminən, 3-4 metr hündürlüyədək fəvvarə vurur və sonra proses eyni qaydada təkrar olunur.

Nəhəcir bulağı haqqında qeydlərimi bitirdikdən sonra yola davam edirik. Çox keçmədən həmişəyaşıl ağaclarla bəzənən təmiz, səliqəli səkilərlə iş-güc dalınca tələsən insanlara rast gəlirəm. Budur, qarlı, buzlu Nəhəcir kəndinin qədimliyi ilə müasir növrağının əyani təsviri. Bir tərəfdə yaşı minilliklərlə ölçülən Nəhəcir dağı və ətəyindəki ata-babalarımızın məğrurluq simvolu sayılan qala, digər yanda da müasir kənd və xidmət mərkəzləri, məktəb binası, eləcə də baxımlı, yaraşıqlı evlər. Təhsil ocağının tarix müəllimi Hicran Novruzovla kəndin keçmişinə qısa ekskursiya edirik. Deyir ki, aparılan arxeoloji tədqiqatlar nəticəsində kəndin tarixinin eramızdan əvvəl 3-cü minilliyə, Orta Tunc dövrünə gedib çıxdığı məlumdur. Qazıntılar zamanı ərazinin şimal-şərq hissəsində tapılan müxtəlif maddi mədəniyyət nümunələri, o cümlədən küpələr, kasatipli qablar qədimdə burada boyalı qablar mədəniyyətinin formalaşdığını göstərir. Şərq hissədən aşkar edilən nekropol, qəbirlər, eləcə də qərbdəki 7-8-ci əsrlərə aid köhnə möhrə evlər, Nəhəcir dağının ətəyindəki qalanın qalıqları kəndin qədimliyini sübut edən əsas elementlərdir. Zaman ötdükcə təbii proseslər nəticəsində həmin tikililərin bir çoxu dağılıb məhv olsa da, Nəhəcir qalası hələ də öz əzəmətini qoruyub saxlayır. Eyni zamanda kəndin cənub hissəsində, "kürənin üzü" deyilən yerdə dulusçuluq sobaları, boya hazırlanan yer də tapılıb ki, bu da vaxtilə insanların qədim sənətkarlıq sahələri, xüsusilə də dulusçuluqla məşğul olduqlarını deməyə əsas verir. Yaşlı insanların sözlərinə görə, kənd bir vaxtlar həm də arandan yaylağa köç edənlərin məskən saldığı yer kimi də tanınıb. Əvvəllər Nəhəcir dağının ətəyindən çıxan iki bulağın hesabına sakinlər həm suvarma, həm də içməli su tələbatını tam ödəsələr də, uzun illər quraqlıqların hökm sürməsi həmin su mənbələrinin ehtiyatlarının xeyli azalması ilə nəticələnib. İndi camaat bu bulaqlardan yalnız içməli su kimi istifadə edir.

Kəndə qısa ekskursiya zamanı evlərin əhatəsində boy göstərən böyük təsərrüfat sahəsi diqqətimi çəkir. Əraziyə yaxınlaşıram. Burada yaşı 70-i haqlamış kənd sakini Seyran Məmmədov məni qarşılayır. Öyrənirəm ki, hazırda 90-a yaxın iribuynuzlu heyvan saxlayan təsərrüfatçı ötən əsrin sonlarında Naxçıvan şəhərinə köçsə də, bir neçə il bundan öncə yaradılan əlverişli şəraitdən istifadə etmək üçün yenidən kəndə qayıdıb. Bu barədə deyir:

– Kəndimiz, sözün həqiqi mənasında, başdan-başa dəyişilib, başqa sözlə, mən buradan gedən dövrdəki





Nəhəcirdən əsər-əlamət belə, qalmayıb. Yollar abadlaşıb, nimdaş tikililərin yerində yaraşıqlı evlər salınıb, müasir kənd və xidmət mərkəzləri ucaldılıb, kənddə yeni ailələr məskunlaşıb. Məktəbdə uzun illər pedaqoji fəaliyyətlə məşğul olduğum üçün deməliyəm ki, əvvəllər ilin bu dövründə həm şagirdlər, həm də müəllimlər narahatlıq keçirərdilər. Çünki dağlıq ərazidə yerləşən Nəhəcirdə qış aylarında kəskin soyuqlar müşayiət olunduğu üçün məktəbdə dərs keçmək, uşaqları tədrisə cəlb etmək işi olduqca çətinləşir, mövsümi xəstəliklər kütləvi hal alırdı. Şəraitsizlik ucbatından dərs prosesində ləngimələr baş verir və bu da, təbii olaraq, tədris ilinin sonunda keçirilən imtahanlarda göstəricilərin aşağı düşməsi ilə nəticələnirdi. Ancaq bir neçə il bundan öncə kəndə qayıtdığımda bunun tam əksinin şahidi oldum, nəvələrimi məktəbə apararkən siniflərlə qısaca tanışlığımda gözlərimə inana bilmirdim: təmizliyi ilə gözoxşayan müasir məktəb binası, elektron lövhəli siniflər, zəngin kitabxana, laboratoriya və daha nələr. Bir vaxtlar xəyalını belə, qura bilmədiyimiz nə vardısa, hamısı reallığa çevrilmişdi.

Onu da deyim ki, kəndə qayıdan kimi pay torpağımı əkib-becərməyə başladım və 2017-ci ildə gördüyünüz bu təsərrüfat sahəsini qurdum. Əvvəllər təsərrüfatımda xırdabuynuzlu heyvanlara üstünlük verirdim, ancaq sonralar tələbatı nəzərə alıb əlimə iribuynuzlu mal-qara saldım. Tədarük olunan məhsulun yaxşı da bazarı var, necə deyərlər, təbii südün, pendirin, şorun, kərənin müştərisi başının üzərindədir. Həftə sonları Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkasında istehsal etdiyim məhsulları heç bir rüsum ödəmədən sərfəli qiymətə sata bilirəm. Maşınım da var, lazımı avadanlıqlar da ki yerli-yerində.

Nəhəcirlə tanışlıq zamanı onu da öyrənirəm ki, artıq bir neçə ildir, yaz-yay aylarında qonşu kəndlərdən buraya onlarla arı ailələri gətirilir. Bu da təbiidir. Çünki bol məhsul əldə etmək üçün köçəri arıçılıq mütləqdir. Bu barədə qısa tanışlıq belə deməyə əsas verir ki, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər nəhəcirli arıçıların da bu sahəyə marağını xeyli artırıb, ötən illərdə keçirilən festivallarda onların istehsal etdikləri məhsullar böyük alıcı marağına səbəb olub. Arıçı Kərəm Ələkbərovun bu gəlirli sahə üzrə böyük təcrübəsi var. Hazırda təsərrüfatında 70-ə yaxın arı ailəsi bəsləyən Kərəm kişi deyir ki, müqəddəs "Qurani Kərim"də adıçəkilən bal arısının insanlara bəxş etdiyi faydaları saymaqla tükənməz. Təsadüfi deyil ki, dünyanın bir sıra tanınmış alim və filosofları da bu möcüzəvi nemətin qeyri-adi gücünə heyranlıqlarını gizlətməyiblər. Atababalarımızdan həmişə eşitmişik ki, bal yeyən yüz yaşayar. Bəli, kim uzun və sağlam həyat sürmək istəyirsə, gərək süfrəsindən yağ-balı əskik etməsin.

Təsərrüfatçı onu da deyir ki, arı saxlamağa başladığım ilk vaxtlarda işin yalnız maraqlı cəhətləri diqqətimi çəksə də, sonralar təcrübəsizlikdən bərkə-boşa da az düşmədim. Atalarımız hədər yerə söyləməyib ki, başına gələn başmaqçı olar. İndi daha əvvəlkitək çətinlik çəkməmək üçün işimi etibarlı tuturam, hər tədbiri vaxtlı-vaxtında, dəqiqliklə yerinə yetirirəm. Arıçılıqla bağlı yenilikləri öyrənməyə can atıram, daim axtarışdayam. Əks-təqdirdə uğur qazanmağın asan olmadığını yaxşı bilirəm. İşə başladığım ilk vaxtlarda məhsuldarlıq aşağı olsa da, zaman keçdikcə çəkdiyim zəhmət öz bəhrəsini verdi. Hazırda qış ayları olduğu üçün arı ailələrini soyuqdan, xəstəlikdən qorumaq əsas qayğımdır. Bu sahəyə yeni başlayanlara məsləhət kimi deyim ki, ilin soyuq vaxtlarında yeşiklər təmiz və quru yerdə saxlanılmalı, xəstəlik yarandıqda dərhal dezinfeksiya edilməlidir. Arı təmiz heyvandır, haram işi qətiyyən sevmir. Gərək onunla xoş rəftar edəsən, körpə uşaq kimi, arılarla da dil tapmağı bacarmalısan. Nəhəcirin gözəl təbiəti arıçıların işini xeyli asanlaşdırır. Dövlətimiz də bu sahəyə qayğı ilə yanaşır, hər il muxtar respublikamızda arıçılıqla bağlı festivallar keçirilməsi də işimizə böyük köməklik edir. Ötən illərdə mən də həmin məhsul bayramlarında iştirak edib, istehsal etdiyim məhsulları sərfəli qiymətə sata bilmişəm. Yaradılan imkanlar üçün arıçılar adından dövlətimizə minnətdarlıq edirəm.

*Kəndin maraqlı cəhətlərindən biri də bir nəfərlə söhbət edərkən ətrafdakı digər sakinlərin də yaxınlaşaraq məsələyə öz münasibətlərini bildirmələridir. Elə arıçı Kərəm Ələkbərovla ünsiyyət zamanı da kənd adamlarından bir neçəsi yaxınlaşaraq söhbətə qoşulur. Onlar təbii məhsullar üçün dükan-bazara üz tutmadıqlarını, öz həyətlərində, torpaq sahələrində əkib-becərdiklərini söyləyirlər. Zəhmətkeş insanlara işlərində uğurlar arzulayıb sağollaşıram. Artıq axşam saatları yaxınlaşdığından şaxta-sazaq şiddətlənməkdədir. Yağan qarın soyuqluğu sümüklərə işləyir. Daha bir yolçuluğun sonu yaxınlaşır. Nəhəcirdən ayrılanda arxaya qanrılıb kəndin qədimliyi və müasir görkəminin fonunda doyumsuz qış mənzərələrinə yenidən tamaşa edir, güllü-çiçəkli, barlı-bəhərli bahar günlərində görüşmək ümidiylə vidalaşıram...*

✍ **Nail ƏSGƏROV**

# Aqrar sahənin yüksəlişi davamlı xarakter daşıyır

Artıq bir neçə ildir ki, muxtar respublikamızda aqrar sahəni əhatə edən yeni istehsal obyektlərinin qurulması, eləcə də islahatların uğurla reallaşdırılması bir sıra yerli qida məhsullarının ixracına da səbəb olub. İstehsal olunan məhsullar daxili bazarı zənginləşdirərək idxaldan asılılığı aradan qaldırmaqla yanaşı, sakinlərin ilin bütün fəsillərində təbii, sağlam qidalar qəbul etməsinə də geniş imkanlar açıb. Ölkədə və dünyada qlobal proseslərin, xəstəliklərin tüğyan etdiyi 2020-ci ildə də muxtar respublika kənd təsərrüfatı sahəsində daim inkişaf tempi ilə diqqəti çəkib, ötən il də aqrar yönümlü kompleks tədbirlər görülüb, əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsi diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" təsdiq edilib ki, bu da qarşıdakı dövrdə aqrar sahədə daha böyük canlanma proseslərinə yol açacaq.



Təbii ki, aqrar sahənin inkişafı torpaq ehtiyatlarından düzgün istifadə olunması, meliorativ tədbirlərin aparılması və mütərəqqi suvarma şəbəkələrinin qurulmasından olduqca asılıdır. Bu məqsədlə 2020-ci ildə də xeyli işlər görülüb, Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin maddi-texniki bazası daha da gücləndirilib, Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış Texniki-İqtisadi Əməkdaşlıq haqqında Sazişə əsasən 17 adda 67 texnika və texnoloji avadanlıq cəmiyyətin istifadəsinə verilib. Mütərəqqi suvarma sistemlərinin qurulması işi də ardıcıl şəkildə davam etdirilib, Şahbuz rayonunun Türkeş, Sələsüz, Mərəlik kəndlərinin ərazisində 275 hektar, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 810 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkələri qurulub. Hazırda Araz çayından qidalanan və 2 min 91 hektar, eləcə də Araz Su Anbarından qidalanan və 3 min 200 hektar torpaq sahəsini əkin dövriyyəsinə qatacaq yeni nasos stansiyalarının və təzyiqli boru xətlərinin, Şahbuz rayonunun Külüs kəndində 400 hektar torpaq sahəsinin əkinəyararlı vəziyyətə gətirilməsi üçün işlər davam etdirilir.



Məhsul istehsalçılarına güzəştli kreditlərin verilməsi, texnika və gübrə ilə təchizatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi və müasir aqrar infrastrukturun formalaşdırılması, öz növbəsində, kənd təsərrüfatı məhsullarının istehsal həcmini də artırıb. 2020-ci ilin məhsulu üçün muxtar respublikada 63 min 405 hektar sahədə əkin aparılıb. Strateji əhəmiyyəti nəzərə alınaraq əkilmiş sahələrin 36 min 879 hektarında taxıl səpini aparılıb, 115 min 649 ton məhsul yığılıb. Ötən il ərzaq təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyətə malik kartofçuluğun da inkişafı diqqətdə saxlanılıb, 3 min 241 hektar kartof sahəsindən 50 min 668 ton kartof tədarük edilib. 2019-cu ildə qarğıdalının hər kiloqramının tədarükçülər tərəfindən 40 qəpikdən qəbul edilməsi muxtar respublika sakinlərində bu sahəyə marağı artırıb, nəticədə, 2020-ci ildə 1549 hektar qarğıdalı əkini sahəsindən 14 min 753 ton məhsul yığılıb ki, bu da əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə 76 faiz çoxdur. Muxtar respublikanın təbii-coğrafi şəraiti meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün geniş imkanlar yaradır ki, bu, ötən ildə də özünü bariz şəkildə göstərib. Belə ki, bəhs olunan ildə 5 min 449 hektar sahədə tərəvəz, 2 min 266 hektar sahədə bostan əkinləri aparılıb, yeni meyvə bağlarının salınması davam etdirilib. İl ərzində mövcud meyvə və üzüm bağlarından 52 min tondan artıq meyvə, 17 min tona yaxın üzüm yığılıb.

**Xəbərlər şöbəsi**

*Sentyabr ayının 27-dən başlanan və 44 gündə qələbə çaldığımız şanlı Vətən müharibəsi yeni tariximizin həmişə fəxr və qürurla xatırlayacağımız bir hissəsidir. Vətən müharibəsində haqq-ədaləti və ərazi bütövlüyünü təmin etməklə şərəfli tarix yazan qəhrəmanlarımız, cəsur, igid əsgərlərimiz şərəfli döyüş yolu keçdilər. Əvvəlcə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa müraciətində xüsusi olaraq qeyd etdiyi bir fikri xatırlatmaq istəyirəm:* ***"Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər… Bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

# İkinci Qarabağ müharibəsi iştirakçıların dili ilə

Dövlət başçısının da qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsində Naxçıvanın igid oğulları ön cəbhədə qəhrəmanlıqla, rəşadətlə döyüşüb, düşmənə layiqli cavab veriblər. Gəlin müharibəni bir də Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilən hərbi qulluqçularımızdan dinləyək.

***Özcan Məmmədov*** 1997-ci il noyabrın 6-da Şahbuz rayonunun Keçili kəndində anadan olub. Hazırda Babək rayonunun Şıxmahmud kəndində yaşayır. 2018-ci ildə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində hazırlıq kursunu bitirib. Sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Bölməsində hərbçi kimi qulluq edib, rütbəsi baş gizirdir. Özcan Şərur rayonunun Günnüt kəndinin erməni işğalından azad olunmasında fəallıq göstərib. O deyir ki, 2016-cı ilin aprel döyüşlərində əldə edilən zəfərlər, həmçinin 2018-ci ildə Günnütün işğaldan azad olunması bir daha göstərdi ki, uzun illərdir, erməni işğalı altında qalan torpaqlarımız da gec-tez azadlığa qovuşacaq. Bu, belə də oldu. Sentyabrın 27-dən başlanan Vətən müharibəsi və 44 gün ərzində qazandığımız qələbə Azərbaycanın şanlı Qələbəsidir. Bu Qələbə Prezident cənab İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, cəsur Vətən oğullarının şücaəti, canı-qanı bahasına qazanılıb.



Özcan deyir ki, Vətən müharibəsində iştirak etmək üçün oktyabrın 11-i Naxçıvandan Bakıya yola düşdük. Oradan bizi sərhəd rayonlarımızdan biri olan Beyləqana apardılar. Burada bizə lazımi təlimatlar verildikdən sonra Füzuliyə, Cəbrayıla, ondan sonra da Xocavənd rayonunun Hadrut qəsəbəsinə getdik. Qəsəbə düşməndən alınsa da, kəndin içərisi hələ yoxlanılmamışdı. Burada komandirlərimizin verdikləri tapşırıqları yerinə yetirdikdən sonra Qubadlı rayonu istiqamətinə yola düşdük. Qubadlı kəndlərinin birində mövqeləndik. Burada düşmən hücumunun qarşısını mərdliklə ala bildik. Ermənilərin şəxsi heyətini, maşın-texnikalarını darmadağın etdik, əlavə olaraq texnikalarının böyük hissəsini, silah-sursatlarını ələ keçirdik. Adsız yüksəkliklərdən birini tutduq və iki qrup tərkibində burada mövqeləndik, düşmənin ardı-arası kəsilməyən hücumlarını dəf etdik. Səhəri gün heyətimizin komandiri, cənab Prezidentin müvafiq sərəncamı ilə "Zəfər" ordeni ilə təltif edilmiş polkovnik Haxverdi Dadaşov göstəriş verdi ki, növbəti istiqamət Şuşa olacaq, əsas strateji yer oradır və Şuşanı alsaq, işimiz də asanlaşacaq. Qubadlıdan çıxanda düşmən keçdiyimiz magistral yolu və meşəni atəşə tutdu. Düşmənə sərrast atışla cavab verirdik. Qabaqda irəliləyirdim, birdən dedilər ki, arxada iki yaralı və bir şəhidimiz var. Döyüş yoldaşım Şərur rayonunun Maxta kəndindən olan Əli Abbas oğlu Məmmədov qəhrəmancasına şəhid olmuşdu. Düşmənin cavabını verdik, şəhidimizin qisasını aldıq. Dörd bir tərəfi dağlıq olan Şuşa yüksəkliyinə doğru qalxdıq. Birinci Naxçıvan heyəti qalxdı həmin yüksəkliyə. Burada ermənilərin sursat anbarını məhv etdik. İrəliyə doğru addımladıq. Düşmən təpənin başında bizi gözləyirdi. "İrəli" əmri ilə "ya Qarabağ, ya ölüm!" deyib silahla qarşı tərəfə ata-ata gedirdik. Heyətimizin sərrastlığı, komandirimizin təcrübəsi nəticəsində ermənilər qarşımızda duruş gətirə bilmir, özlərini sıldırımdan aşağı atırdılar. Onlara yaxınlaşanda erməninin biri əlində qumbaranı çəkdi, anındaca onu vurduq, özü qumbaranın üstünə düşdü. Düşmənin canlı qüvvəsini məhv etdikdən sonra onların silahlarını, qumbaralarını, digər bizə lazım olan ləvazimatlarını ələ keçirdik. Onların silahlarını, texnikalarını özlərinə qarşı istifadə edirdik. Həmin gün heç bir şəhid vermədik. Növbəti günün səhəri düşmən artilleriya ilə atmağa başladı, ancaq bizi hədəf ala bilmirdilər. Ermənilərə əlavə texnikalar, silah-sursatlar gəlirdi. Texnika ilə dolu maşınlarını vurduq, dərəyə düşdü. Maşına atdığımız atəş onları qəzəbləndirdi, başladılar tank, top, minaatanla atəş açmağa. Solumda komandirim, ortada mən, sağımda çavuşum dayanmışdı. Atdıqları ikinci minaatan mərmisi məndən yan keçmədi, ayağımdan yaralandım, ancaq gücümü toplayıb ayağa qalxdım, silahımı götürdüm, döyüş yoldaşlarımla birgə yenidən mübarizə aparmağa başladım. Gözü dönmüş düşmən dayanmadan atırdı, Goranboydan Elvin Sadiqov adlı hərbi qulluqçu düşmən gülləsinə tuş gələrək şəhid oldu. Bölük komandirimiz kürəyindən qəlpə yarası almışdı. Buna baxmayaraq, son ana qədər döyüşdük, düşmənin xeyli canlı qüvvəsini məhv etdik. Düşmən ekoloji soyqırımı törədərək Şuşa şəhəri yaxınlığında yerləşən Topxana meşəsini yandırmışdı. Hər tərəfi tüstüdən bürümüşdü, alovlar içərisində irəliləyirdik, həmin yerdə şəhid verdik, yaralılarımız oldu. Mən də yaralandığım üçün yeriməkdə çətinlik çəkirdim. Nəhayət, bizə kömək gəldi. Füzulidə mənə ilk tibbi yardım göstərildi. Bir də gözümü açdım ki, Beyləqan Rayon Mərkəzi Xəstəxanasındayam. Sonra məni Bakıya hərbi hospitala apardılar, qələbə xəbərini orada aldım. Mənimlə birgə orada yatan digər yaralıların da sevincinin həddi-hüdudu yox idi. Bu şanlı Qələbə bizim günlərdir, apardığımız mübarizənin məntiqi nəticəsi, şəhid olan minlərlə Vətən övladının, döyüş yoldaşlarımızın qisasının alınması deməkdir. Mən bu günləri həmişə qürur və iftixarla xatırlayacağam.

Müharibənin digər bir iştirakçısı ***Müslüm Mazanov***la həmsöhbət oluruq. Müslüm gülür, sevinclidir, lakin gözlərindən müharibənin ağrı-acısını aydınca sezmək olur. 1999-cu il iyun ayının 23-də Naxçıvan şəhərində anadan olub bu gənc oğlan. Naxçıvan Qarnizonu tam orta məktəbində oxuyub, sonra təhsilini Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə davam etdirib. 2017-ci ildə Culfa şəhərindəki "N" hərbi hissənin kəşfiyyat bölüyündə hərbi xidmət keçib, 2018-ci ilin dekabrında xidmətini bitirib. Uşaqlıqdan hərbi sahəyə marağı olan Müslüm Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Bölməsində üçaylıq kurslarda iştirak edir. Kursu bitirdikdən sonra hərbi hissələrin birində xüsusi təyinatlı radiotelefonçu vəzifəsində xidmət edir. Elə Xüsusi Təyinatlı Bölmənin tərkibində də rabitəçi kimi döyüşə yollanır. O, keçdiyi döyüş yolunu belə xatırlayır: – Biz Naxçıvandan döyüş bölgəsinə yola düşəndə yalnız bir amalımız var idi. 30 ildir, həsrətini çəkdiyimiz torpaqlarımızı yağı düşmənin tapdağından azad etmək. Bu yolda ölümə getməyə hazır idik. Mən Xocavənd, Cəbrayıl, Füzuli, Laçın istiqamətlərində döyüşmüşəm. Heyətimiz o qədər güclü idi ki, düşmən qarşımızda tab gətirə bilmirdi. Bütün istiqamətlər boyunca düşmənin hərbi texnikalarını və canlı qüvvəsini məhv edirdik. Mənfur düşmən evlərin zirzəmilərində, başdaşılarının arxasında gizlənmişdi. Biz ordumuzun digər Xüsusi Təyinatlıları ilə birgə hərəkət edir, hər bir döyüş tapşırığını yerinə yetirir, bir sıra yüksəklikləri azad edərək irəliləyirdik. Laçın dəhlizinə gedən yolda ermənilər bizi artilleriya atəşinə tutdu. Dövlət başçımızın müvafiq sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edilən kapitan Renat Şıxnəbiyevin komandanlığı altında düşmənə layiqli cavab verir və ancaq irəli gedirdik. Düşmən 20 metr yaxınlığımıza kasetli bombalar atırdı. Təcrübə bizi düşmən hücumundan xilas edirdi. Düşmənin bölmələrimizə atəş açdığı yeri tapıb dəqiq atəş zərbəsi ilə cavab verdik. Mən yoldaşlarımı həm rabitə ilə təmin edir, həm də atəş dəstəyi qrupunda döyüşürdüm. Düşmənlə üzbəüz döyüşlərin birində minaatanın zərbəsinə tuş gəldim. Kəllə-beyin travması almışdım, sol qulağım eşitmirdi. Acıqlı və vəhşi düşmən hara gəldi atırdı. Döyüş yoldaşlarımı tək buraxa bilməzdim, birtəhər gücümü toplayıb düşmənə zərbələr endirməyə başladım, əsgərlərlə birlikdə yaralıları atəş altından çıxardıq. Döyüşdə şücaət göstərən leytenant Zahir Feyzullayev onlarla ermənini məhv edərək özü də qəhrəmancasına şəhid oldu. Digər yoldaşlarımla yaralıları çiyinlərimizdə daşıyır, onları qorumaq üçün qabaqda gedirdim. Üstümdə cəmi bir qumbaram qalmışdı. Düşünürdüm ki, erməni gülləsinə tuş gəlməkdənsə, özümü partlatsam daha yaxşıdır. Yolda tibbi yardım maşını bizi gözləyirdi. Mən və bir neçə yaralı yoldaşım həmin maşında ilk tibbi yardım üçün Füzuliyə yola düşdük. Yolda düşmən maşınımızı dörd bir tərəfdən atəşə tutdu. Lakin düşmənin bu hiyləsinin də qarşısını qəhrəmanlıqla ala bildik. Füzuli Rayon Mərkəzi Xəstəxanasına çatanda hava işıqlanmışdı. Orada ilk tibbi yardım göstərildikdən sonra məni Xocavənd Rayon Mərkəzi Xəstəxanasına apardılar. Bakı şəhərindən həkimlər, psixoloqlar gəlib səhhətimizi yoxlayırdılar. Sağ olsun həkimlərimiz, əziyyətimizi çox çəkdilər. Bir neçə gün sonra dedim ki, yaxşıyam, mən döyüş bölgəsinə, yoldaşlarımın yanına qayıtmaq istəyirəm. Lakin həkimlərimiz icazə vermədilər. Daha sonra məni Bakı şəhərindəki hərbi hospitala apardılar. Bir neçə gün müalicə aldıqdan sonra oradan Naxçıvana qayıtdıq. Çox qürurluyam ki, Vətənə olan borcumu yerinə yetirə bildim. Minlərlə cəsur oğullarımızla birgə həqiqi gücün biləkdə yox, diləkdə olduğunu göstərdik bütün dünyaya. Ən böyük, ülvi diləyimiz gerçəkləşdi. Qarabağımız düşmən tapdağından azad edildi, üçrəngli bayrağımız həmin ərazilərdə dalğalanmağa başladı.



*Deyirlər ki, böyük məsələlər qətnamə və danışıqlarla deyil, dəmir və qanla həll edilir. 44 günlük şanlı Qələbəni də "dəmir yumruq" və polad siyasi iradə təmin etdi. Özcan, Müslüm kimi minlərlə igid oğullarımız, şəhidlik zirvəsinə yüksələn 2800-dən çox hərbi qulluqçumuz, müharibənin könüllü iştirakçıları Qarabağımıza sülh gətirdi. Qeyrətli, şücaətli Vətən oğullarımızla – şəhidlərimizlə, qazilərimizlə, müharibənin qorxmaz iştirakçıları ilə fəxr edirik, qürur duyuruq, onları böyüdən ata-anaların qarşısında baş əyirik.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Uşaqlarda nitqin inkişafı üçün geniş reabilitasiya imkanlarımız var



Düzgün nitq fikri məntiqli ifadə etmənin əsası, başlıca ünsiyyət vasitəsidir. Səlis nitq çox erkən yaşlardan tədricən formalaşır. Buna görə də uşağın nitqinin formalaşması prosesinə düzgün müdaxilə olunmalıdır, yəni nitqdə olan qüsurlar vaxtında valideynlər və ya mütəxəssislər tərəfindən aşkarlanmalı və korreksiya edilməlidir. Körpə dünyaya gələn gündən onun hərtərəfli inkşafına diqqət ayrılmalı, mütəmadi olaraq göz təması qurulmalıdır. Ona görə ki, nitq inkişafına, ünsiyyət bacarıqlarının formalaşmasına keçid göz təmasından başlayır. Eyni zamanda uşaqla danışarkən düzgün və səlis nitqdən istifadə etməklə, ona əşyalar tanıdılmalıdır. Körpələr müxtəlif əşyaların səsindən qorxursa, onlar həmin səslər olan yerə aparılmamalıdır. Əks halda, bu qorxu körpənin nitqinin ləngiməsinə səbəb ola bilər.

Yuxarıdakı fikirləri ümumiləşdirərək belə deyə bilərik ki, nitq bacarığının formalaşması üçün psixi inkişaf normal səviyyədə olmalıdır. Nitq qarşıdakı insanın dediklərini eşitmək, anlamaq, cavabı beyində hazırlayıb, səsləndirmək kimi mürəkkəb bir prosesdir. Bu səbəbdən də müasir dövrdə nitq qüsurları tibbi reabilitasiya proseslərinin də əsasını təşkil edir. Bu məqsədlə, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də nitq qüsurlarının aradan qaldırılması, psixi inkişafın təmin edilməsi istiqamətində müxtəlif reabilitasiya işləri aparılır. Mərkəzdə təlim-bərpa, psixoloji dəstək xidməti, defektoloji bölmə, kinekt, əmək terapiyası və musiqi terapiyası otaqları fəaliyyət göstərir ki, bu otaqlarda uşaqların nitq, psixi, böyük və kiçik motor bacarıqlarının inkişafı üçün təlim məşğələləri keçirilir. Eyni zamanda mərkəzə ilk dəfə müraciət edən valideynlərlə psixoloji söhbətlər aparılır, uşağın hansı bölməyə uyğun olduğu müəyyənləşdirilir və müvafiq bölməyə yönləndirilir. Qeyd etdiyimiz kimi körpə uşaqda nitq ləngiyirsə, onun psixi inkişafdan da qalması açılmazdır. Buna görə də Regional İnformasiya Mərkəzində uşaqlara müxtəlif testlər tətbiq olunur. "Psixoloji inkişaf" testi də onlardan biridir. Onu da vurğulayaq ki, uşağın nitqində olan qüsurları tezliklə aradan qaldırmaq üçün ilkin konsultasiya çox vacibdir. Bu zaman loqopedlərimiz uşağın nəfəs aktını və artikulyasiya aparatını – dil və yanaqların vəziyyəti, çənənin, dişlərin quruluşu, sərt, yumşaq damağın vəziyyətini yoxlayır, ona uyğun proqram hazırlayırlar. Əgər uşağın dilində, yanaqlarında nöqsanlar aşkar edilərsə, bu zaman uşağa loqopedik masaj da tətbiq olunur. Həmin masaj loqopediyanın bir hissəsini əhatə edir. Əvvəlcə əzələ tonusu yoxlanılaraq ona uyğun masaj proqramı tərtib edilir. Masaj zamanı uşağın vəziyyətinə fikir vermək lazımdır ki, əzələlərdə heç bir gərginlik olmasın. Bəs təlimə hansı yaşda başlanılarsa, daha uğurlu nəticə əldə etmək olar? Uşağın nitqinin formalaşması 3 yaşında başa çatır. Bu səbəbdən təlimə erkən yaşlarda başlamaq düzgün deyil. Çünki bəzən uşağın nitqində müəyyən qədər yubanmalar da ola bilər. Bu zaman əsas üstünlük uşağın anlamaqavrama qabiliyyətinə verilməlidir. Yəni uşaq ona verilən sualı və müraciəti anlamalı, komandaları yerinə yetirməlidir. Əgər uşağın həm nitqi, həm də anlaması zəifdirsə, bu zaman 2 yaş altı aylığından təlimlərə başlanması uyğun hesab olunur. Ümumiyyətlə, təlimə vaxtında müdaxilə uşağın yaşıdlarından geri qalmamasına, onların sosiallaşmasına şərait yaradır. Bu baxımdan, valideynlər bu məsələlərə həssas yanaşmalı və vaxtında zəruri tədbirlər görülməlidir. Unutmayaq ki, uşaqlar bizim gələcəyimizdir. Muxtar respublikamızda digər uşaqlar kimi sağlamlıq imkanları məhdud uşaqların da gələcəyi, onların sağlamlıqlarının bərpa və reabilitasiyasına göstərilən dövlət qayğısından, yaradılan şəraitdən səmərəli istifadə etməliyik



**Hürü HÜSEYNOVA**
***Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu***

# Elmi məqalə yüksək impakt faktorlu jurnalda dərc olunub




Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının müəllimi, təhsilin idarəolunması, təftişi, planlaması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru Rza Məmmədovun Anadolu Universiteti Pedaqogika fakültəsinin, Pedaqogika elmləri kafedrasının professoru Ahmet Aypayla birgə həmmüəllif olduğu "Türkiyədəki tədqiqat universitetlərinin effektivlik analizi" ("Efficiency analysis of research universities in Turkey") adlı elmi məqaləsi Böyük Britaniyanın Oksford mərkəzli "International Journal of Educational Development" adlı nüfuzlu jurnalda nəşr olunub. Məqalədə Türkiyənin 15 tədqiqat universitetinin beynəlxalq elmi-tədqiqat göstəricilərinin mövcud vəziyyəti və gələcək perspektivləri araşdırılıb. Bu vəziyyətə uyğun olaraq universitetlərin tədqiqat universiteti olmaq üçün elmi tədqiqatlara əsaslanan gəlirlər və digər beynəlxalq standartlar əsasında təklifləri məqalədə əsas tədqiq olunan məsələlər sırasındadır.

Qeyd edək ki, məqalə ilə jurnalın *https://www.journals.elsevier.com/international-journal-of-educational-development* veb saytında tanış olmaq mümkündür.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Bu qış bir başqa qışdır...



Qış gecəsi, soyuğun əvvəlcə avazı gəlir, sonra mehi. Şiddətlənməyini görməyəsən. Bir göz qırpımında səmada Günəş görünür. Ancaq istisini duya bilmirik. Hələ qışın çən-dumanını demirəm. El arasında deyirlər ki, gözgözü görmür. Gecələr uzanmağa, gündüzlər qısalmağa başlayır. Hər il belə olur. Səs salır dağ-düzə, dərə-təpəyə, çaya, meşəyə. Budur, xəz dərisini geyinib yol alıb qədim Nuh diyarının, Əcəmi yurdunun gözoxşayan, dillərə dastan olan ünvanına. Keçdiyi hər yerə misilsiz sərvətini bəxş edir. Soyuqluğunu bölə-bölə xərcləyir. Necə də səxavətlidir, bu qış. Heç yerdən əsirgəmir soyuğunu, çovğununu, tufanını. Həm də ədalətlidir. Bərabər bölür şaxtasını, buz parçalarını. Təpədən dırnağa kimi soyuqlar başlayır. Ətrafdakı ağacların gövdəsindən başlayan soyuq budaqlarına qədər gəlib çıxır. Donan ağacların boynunu bükməsi üzərindən əsən şaxtalı, çovğunlu, meh əzablı qışın görüntüsü kimi təqdim olunsa da, təbiətin ağ örpəyinin ecazkar tablosundan bir qalereya salonu yaradır. Əlamətlərini sərgiləyir ətrafına. Qış üçhərfli, birhecalı olsa da, məzmunca çox dərindir. Sərtdir. İnamlıdır, qərarlıdır. Məqsədlidir, iddialıdır. Necə də prinsipialdır. Heç bir hadisənin haqqını başqasıyla əvəz etməz. Ədalətli bölgüsü var. Qoruyur öz fəslinin etibarını. Amma illərdir, yorğun idi. Bir az narahat, bir az da qəmgin idi... Ta ki bu qışa qədər...

Bu qış bir başqa qışdır. Bu qış heç bir qışa bənzəmir. Ötən qışlardan fərqlidir. Ötən qışlarda Vətən torpaqlarından uzaq sıxılırdı, təbiətin ürəyi. Üşüyürdü dağları. Tənhalıqdan gün sayırdı vidalaşmaq üçün. Sırasını dostu yaza vermək üçün. Darıxırdı uzaqlara baxa-baxa. Gözləri yol çəkirdi. Vətən torpaqlarında canlanmaq üçün. Amma artıq bu qış o qışlardan deyil. Bu qışın hökmü də bambaşqadır, ruhu da . Zəfər qışıdır bu qış. Qələbə qışıdır bu qış. Üşütmür təbiətin qəlbini. Dondurmur qonaq olduğu çöhrələri... Bu qışın nağılı da başqadır. Qəhrəmanları da. Yazılan hekayəsi də. Sıralanan səhifələri də. Elə görünən mənzərələri də. Təbiətin soyuqdan qidalanıb, istiləşən ilhamı da. Yerində qaynayan məhəbbəti, coşub-daşan duyğuları da bir başqadır. Elə pöhrələnən təbiəti də bir başqadır. Bir vaxtlar qan donduran sazaqdan cansızlaşan budaqları üz döndərmişdi ağacından. Küsmüşdü qəribçilikdən. İndi şaxta, çovğunda da, sanki qucaq açıb pöhrələnib. Qopan çovğun ilə Vətən həsrətiylə yanan qış həsrət qaldığı Qarabağ torpağına da artıq üz tutub. Bu qış mənzərələri də bir başqa aləmdir. Əhatəsi genişdir. Ürəyi də genişdir bu qışın. Tələsmir heç bir yerə. Xoşdur, bu qışın soyuğu da, çovğunu da. Bir sözlə, bu qış bir başqa qışdır...

✍ Türkan HÜSEYNLİ











## Biotexniki tədbirlər heyvanların qorunmasında mühüm rol oynayır

***Muxtar respublikamızın ərazisinin təbii şəraiti müxtəlif olduğundan, onun heyvanlar aləmi də rəngarəngdir. Fauna biomüxtəlifliyinə sahib diyarımızda heyvanların qorunması, onların normal yaşayışı üçün lazımi tədbirlər hayata keçirilir. Xüsusilə qış fəslində torpaq sahəsinin və bitki örtüyünün qarla örtülməsi bir çox heyvanlar üçün yem əldə olunmasında çətinliklər törədir.***



Heyvanat aləminin qidaya olan tələbatının yaxşılaşdırılması məqsədilə onların kompleks yaşadığı ərazilərdə, xüsusi mühafizə edilən təbiət ərazilərində, yeni salınmış yaşıllıq ərazilərində biotexniki tədbirlər icra olunur. Müəyyən edilmiş təbiət ərazilərində bezuar dağ keçiləri, muflonlar və digər dağ heyvanlarının qış aylarında qaba yemə, suya və duza olan tələbatlarının ödənilməsi belə tədbirlər sırasındadır. Bunlar isə heyvanların alternativ qida mənbələri axtarışının, başqa ərazilərə miqrasiyasının və nəsil artımının azalmasının qarşısının alınmasında vacib rol oynayır, bir sözlə, onları məhv olmaq təhlükəsindən xilas edir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, qış aylarında heyvanların yemlənməsi üçün 500 ədəd ot kipi, 10 tona yaxın daşduz ayrılıb, eyni zamanda istifadəyə yararsız olan meyvə-tərəvəz və digər məhsulların da istifadəsi nəzərdə tutulub. Bu məqsədlə ötən həftə ərzində Culfa rayonu ərazisindəki “Arazboyu” Dövlət Təbiət Yasaqlığı, Şahbuz Dövlət Təbiət Qoruğu, “Arpaçay” Dövlət Təbiət Yasaqlığı ərazilərində biotexniki tədbirlər keçirilib, ərazilərə qaba yem, daşduz və digər qida məhsulları paylanılıb.

Nazirlik tərəfindən yüksək dağlıq ərazilərdə məskunlaşan yabanı faunanın su ehtiyacını ödəmək üçün də müvafiq tədbirlər görülür. Su novları düzəldilərək zəruri olan ərazilərə qoyulur ki, bu da heyvanların suya olan tələbatını ödəməyə imkan verir. Belə novlar Ordubad rayonunun Soyuqdağ istiqamətində Əjnohur adlanan hissədə və Kotam kəndi yaxınlığında qoyulub. Nohurların ətrafında daşduz da qoyulur. Daşduz canlıların həyatında mühüm rol oynayır, xüsusən qış aylarında maddələr mübadiləsini sürətləndirməklə soyuğa və xəstəliklərə qarşı dözümlülüyünü artırmış olur. Həmçinin nazirlik əməkdaşları tərəfindən bir sıra yaşayış məntəqələrində ətraf mühitin mövcud vəziyyəti, ictimaiyyətlə qanunsuz ov edilməsi hallarının qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılır, yoxlama-reydlər keçirilir. Aparılan biotexniki tədbirlər vəhşi faunanın qış fəslindən sağlam çıxmasına əlverişli şərait yaradır. Fauna ehtiyatlarının mühafizəsi və artırılması məsələsini daim diqqət mərkəzində saxlayan nazirlik biotexniki tədbirləri bundan sonra da davam etdirəcək.

Təbiətin bir parçası olan canlıları – heyvanları qorumaq təbiəti qorumaq deməkdir. Bunun üçün dövlətimiz tərəfindən lazımi diqqət və qayğı göstərilir, şərait yaradılır. Hər bir insan da təbiəti sevməli, ona qulluq göstərməli, flora və faunanın zənginləşməsində öz köməyini əsirgəməməlidir. Yaşamaq üçün təbiəti də qorumalı və yaşatmalıyıq.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Məşğələ keçirilib

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən “Zümrüd Tikiş” Məhdud Məsuliyyətli Cəmiyyətində məşğələ keçirilib.***

Məşğələ zamanı növbətçi yanğınsöndürmə xidmətlərinin şəxsi heyətinə müəssisənin müvafiq vəzifəli şəxsləri tərəfindən istehsalat fəaliyyəti, yanğın təhlükəli sahələri və istehsal sexləri haqqında ətraflı məlumatlar verilib. Əsas giriş və ehtiyat çıxış yolları, müəssisənin təxliyə planı, ilkin yanğınsöndürmə vasitələrinin mövcudluğu və onlardan istifadə qaydaları öyrənilib.

Şəxsi heyətin döyüş və peşə hazırlığının artırılması məqsədilə “Zümrüd Tikiş” MMC-də şərti olaraq baş verməş yanğının söndürülməsi və lokallaşdırılması istiqamətində tapşırıqlar icra olunub.

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti*

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3770 | 279,0 | 279,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2340 | 165,2 | 165,2 | 100,0 |
| 3. | Babək rayonu | 1617 | 114,4 | 114,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 848 | 60,3 | 60,3 | 100,0 |
| 5. | Culfa rayonu | 707 | 51,1 | 51,1 | 100,0 |
| 6. | Kəngərli rayonu | 593 | 42,7 | 42,7 | 100,0 |
| 7. | Şahbuz rayonu | 376 | 27,1 | 27,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 69 | 5,1 | 5,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19835 | 1785,2 | 1782,6 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30155** | **2530,1** | **2527,5** | **99,9** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 155 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 530 min 100 manat olmuş, cəmi 2 milyon 527 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

### *İtmişdir*

Şərur rayonunun Vərməziyar kəndində yaşayan Qasımov Əli Həsən oğlunun adına verilmiş JN-373A inventar nömrəli, 10218038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun İbadulla kəndində yaşayan Nəcəfov Hüseyn Həsən oğlunun adına olan JN-187 inventar nömrəli, 10208018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Məmmədova İnayət Sərdar qızının adına olan Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 22, mənzil 1-ə aid 5077 inventar nömrəli texniki pasport və MH-0031930 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Dizə kənd sakini Quliyev Sahəddin Həsənqulu oğlunun adına olan JN-582A inventar nömrəli, 10200058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 16